"Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olunan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur".

Heydər ƏLİYEV

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 fevral 2015-ci il № 10 (1926) Qiyməti 25 qəpik

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1159-IVQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Prezidentinin

Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1159-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanunun 28.6-cı maddəsinin ikinci cümləsinə uyğun olaraq, hərbi biletlərin formasını üç ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.5-ci maddəsinin ikinci cümləsində və 28.6-cı maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.2. həmin Qanunun 2.0.5-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri həyata keçirirlər;

3.3. həmin Qanunun 2.0.9-cu maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirirlər.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 fevral 2015-ci il.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1130-IVQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Prezidentinin

Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1130-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 fevral 2015-ci il.

Ali Baş Komandan İlham ƏLİYEV:

"Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda istənilən vəzifəni icra edə bilər"

Silahlı Qüvvələrimizin irimiqyaslı əməliyyat-taktiki təlimləri zamanı döyüş atışları icra olunmaqla əsas mərhələ keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatlarında qeyd edildiyi kimi, Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növlərinə məxsus bölmələrin cəlb olunması ilə irimiqyaslı əməliyyat-taktiki təlimləri davam edir. Təlimlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi altında keçirilir. Ordumuzun döyüş hazırlığının tərkib hissəsi olan bu tədbirlər qoşunlarımızın əməliyyat-taktiki bacarığının artırılmasına, zabit, gizir və əsgərlərimizin peşəkarlığının daha da yüksəldilməsinə xidmət edir.

Onu bildirməyə dəyər ki, yanvarın 10-da Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsilə bağlı fikirlərini də bildirmiş, dövlətimizin təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimizə ölkə rəhbərliyi tərəfindən göstərilən qayğıya toxunmuşdu.

Ermənistanı aciz durumda olan, gücsüz, dilənçi bir ölkə kimi səciyyələndirən dövlət başçısı qeyd etmişdi ki, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. "Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər. Ancaq biz təkbaşına mübarizə aparırıq. Yaxın tariximiz göstərib ki, biz hətta təkbaşına mübarizədə, siyasi mübarizədə uğur qazana və öz milli maraqlarımızı müdafiə edə bilərik".

Təbii ki, Azərbaycanın dövləti maraqlarının müdafiəsində günü-gündən güclənən Silahlı Qüvvələrimiz aparıcı mövqeyə malikdir. Məhz bu səbəbdən ordu quruculuğu ölkə rəhbərliyi tərəfindən prioritet vəzifə elan edilib. Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev bir daha vurğulayıb: "2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq".

Dövlət başçısının bu mövqeyi ordu rəhbərliyinin və hər bir zabit, gizir və əsgərin üzərinə əlavə məsuliyyətlər qoyur. Vətənimizin qarşısında duran Qarabağ kimi taleyüklü problemin həllinə hazır olmaq üçün ordumuzda, hərbi hissələrimizdə hərbi intizamın, döyüş hazırlığının daha da yüksəldilməsi böyük önəm kəsb edir.

Təsadüfi deyil ki, döyüş hazırlığı planına əsasən, peşəkarlığın daha da möhkəmləndirilməsi bu il bütün qoşun növlərində müəyyən edilmiş əsas məqsəddir. Hərbi hissə və birləşmələrdə şəxsi heyətin ixtisas və taktiki ustalığını artırmaq, hərbi intizamı daha da möhkəmləndirmək, hərbi kollektivlərdə mənəvi-psixoloji hazırlığı, döyüş ruhunu yüksəltmək Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qoşunlarımızın şəxsi heyəti qarşısına bir vəzifə kimi qoyulub.

(Ardı 2-ci səhifədə)

Ali Baş Komandan İlham ƏLİYEV:

"Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda istənilən vəzifəni icra edə bilər"

(Əvvəli 1-ci səhifədə)

Bir daha Azərbaycan Prezidenti İlham Əliyevin Silahlı Qüvvələrimiz barədə səsləndirdiyi fikirlərə istinad etmək istəyirəm: "Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda istənilən vəzifəni icra edə bilər".

2015-ci ilin ilk günlərindən ordumuzun fəaliyyətində bir canlanma müşahidə edilməkdədir. Tədris ili ərzində əsgərlərin fərdi hazırlığından tutmuş kompleks məşğələlərə, komanda-qərargah və taktiki təlimlərə qədər keçirilməsi nəzərdə tutulub. Bütün qoşun növlərinin iştirakı ilə keçirilən irimiqyaslı əməliyyat-taktiki təlimləri bu istiqamətdə atılan önəmli addımlardandır.

Hazırkı manevrlərə ordumuzun böyük bir kontingenti cəlb edilib. Təkcə onu demək kifayətdir ki, təlim meydanlarında 15 min nəfərədək şəxsi heyət nəyə qadir olduğunu nümayiş etdirir.

Məlum olduğu kimi, müasir orduları zirehli texnikasız təsəvvür etmək mümkün deyil və hərbi əməliyyatlarda döyüş maşınları olmadan uğur qazanmaq yetərincə müşkül məsələdir. Çoxsaylı müasir hərbi texnikanın təlimlərə qatılması onları hərəkətə gətirən döyüşçülərimizin peşə vərdişlərinin artırılmasında həlledici amildir. Bu baxımdan rəqəmlər çox şeydən xəbər verir: 300-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 200-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək aviasiya vasitəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə hava hücumundan müdafiə bölmələri, o cümlədən müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri iştirak edir.

Səhra şəraitində yaradılmış əsas komanda məntəqəsində olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlim bölgəsində müşavirə keçirib.

Müşavirədə təlimlərə cəlb edilən birləşmə və hərbi hissələrin komandir və rəis heyətinin təlimlərdə fəaliyyəti, qəbul etdiyi qərarlarla bağlı məruzələr dinlənilib.

Müdafiə naziri təlimlərin əhəmiyyətindən və qarşıda duran vəzifələrdən danışaraq müvafiq tapşırıq və göstərişlərini verib.

Bir faktı da qeyd etməyə dəyər ki, hərbi əməliyyatlar zamanı ehtiyat qüvvələrin ordu sıralarına çağırılması zərurətə çevrilir. Hazırkı irimiqyaslı əməliyyat-taktiki təlimlərinin bir önəmi də ondadır ki, birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi məqsədilə ehtiyatdan 5 min nəfərədək hərbi vəzifəli və 300-ə yaxın avtomobil texnikası cəlb edilib. Döyüş hazırlığı çərçivəsində ehtiyatdan çağırılmış hərbi vəzifəlilərə silah və hərbi texnikadan istifadə qaydaları üzrə praktiki məşğələlər, döyüş atışları, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə tədbirlər keçirilir.

Hərbi manevrlərə bilavasitə rəhbərlik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov ehtiyatdan çağırılmış hərbi vəzifəlilərlə görüşüb. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatında bildirildiyi kimi, Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə Vətən və xalq qarşısında məsuliyyətlərinə diqqət çəkərək təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən Vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkür edib.

Nazir bildirib ki, onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirirlər. Bununla onlar silahlanmada olan yeni, müasir və modernləşdirilmiş silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, onların düzgün istifadəsi və istismarı qaydalarını bilmək imkanı əldə ediblər.

"Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti bu gün də davam edir. Silahlı Qüvvələrimiz bütün imkanlardan istifadə etməklə düşməni işğal olunmuş torpaqlarımızdan çıxarmağa qadirdir. Son zamanlar düşmən daha da azğınlaşıb. Amma Ermənistandakı hərbi xuntanın rəhbərləri bilməlidirlər ki, Azərbaycan Ordusu və Azərbaycan əsgəri onların layiqli cavabını verir və bundan sonra da verəcəkdir. Qısa bir müddət ərzində 20-dən çox işğalçı məhv edilib. Düşmənin onlarla yaralısı var. Silahlı Qüvvələrimiz də Vətən uğrunda şəhid verib. Biz onların yaxınlarına və əzizlərinə başsağlığı veririk. Xalqımız bilməlidir ki, şəhidlərin qisası birə on qat alınıb və bundan sonra da belə olacaqdır", - deyə Müdafiə naziri bəyan edib.

Fevralın 4-də irimiqyaslı əməliyyat-taktiki təlimlərinin əsas mərhələsi olub. Bu zaman manevrlərə cəlb edilmiş bölmələr müxtəlif döyüş atışlarını yerinə yetiriblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, qəflətən döyüş hazırlığı vəziyyətinə gətirilən birləşmə və hərbi hissələrin ön dəstələri irəli yeridiliblər. Onlar hücum edən əsas qüvvələrin əməliyyata uğurla qoşulmasını təmin ediblər və bununla döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetiriblər.

Qoşunlarımız təlimlərin məqsədinə uyğun olaraq əvvəlcədən hazırlanmamış ərazidə "düşməni" atəşlə tələfata uğradıblar. Sonra bilavasitə təmas vəziyyətində fəaliyyətlərini genişləndirərək hücum əməliyyatları üzrə tapşırıqları çevikliklə yerinə yetiriblər.

Təlimlərdə iştirak edən bütün qoşun növlərinin döyüş hazırlığının səviyyəsi, tapşırıqların yerinə yetirilməsinin operativliyi və səmərəliliyi, qarşılıqlı fəaliyyətin və təminatın təşkili, qarşıya qoyulan tapşırıqların icrası yüksək komandanlıq tərəfindən yoxlanılıb.

Təlim meydanında, Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, motoatıcı və tank bölmələrinin, raket və artilleriya qurğularının, zenit-raket komplekslərinin, döyüş təyyarə və helikopterlərinin döyüş atışları icra olunub, praktiki raket buraxılışları və bombalama həyata keçirilib.

Silahlı Qüvvələrimizdə aparılan döyüş hazırlığı tədbirləri bir daha göstərir ki, Azərbaycan Ordusu qarşısında duran əsas vəzifəni yerinə yetirməyə, ölkəmizin ərazi bütövlüyünü təmin etməyə qadirdir.

Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"

Müdafiə naziri cəbhəboyu zonada yerləşən yeni tikilmiş hərbi hissənin açılışını edib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, yeni tikilmiş və müasir avadanlıqla tam təchiz edilmiş hərbi hissənin açılış mərasimi keçirilib.



Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada yerləşən hərbi hissənin açılışında iştirak edərək yeni istifadəyə verilmiş qərargah, əsgər yataqxanaları, tədris kompleksi, döyüş texnikası üçün saxlanclar, qarovul şəhərciyi, sıra meydanı, yeməkxana, tibb məntəqəsi, qazanxana kompleksi və digər obyektlər ilə tanış olublar.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyət qarşısında çıxış edərək Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da gücləndirilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb.

"Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, 2014-cü ildə bu istiqamətdə görülən işlər bu il də davam etdiriləcəkdir. Azərbaycan dövlətinin diqqət və qayğısı nəticəsində qısa bir müddətdə artıq ikinci hərbi şəhərciyin açılışını edirik. İl ərzində hər ay biz yeni hərbi şəhərciklərin istifadəyə verilməsini həyata keçirəcəyik.

Silahlı Qüvvələrimizin şəxsi heyəti də dövlət rəhbərliyi tərəfindən bizə göstərilən bu etimadı doğrultmalı, işğal olunmuş torpaqlarımızı düşmən tapdağından azad etmək üçün döyüş hazırlığını daim artırmalıdır.

Keçirilən irimiqyaslı təlimlər ordumuzun gücünü və qüdrətini bir daha nümayiş etdirir. Təlimlərə cəlb olunan döyüş texnikası, aviasiya, raket-artilleriya qurğuları və digər vasitələrin istifadəsi ilə yanaşı, ən əsası şəxsi heyətin ruh yüksəkliyini, vətənpərvərlik əzmini, Azərbaycan əsgərinin peşəkarlığını və hazırlığını xüsusi qeyd etmək istərdim.

Son dövrlərdə düşmənə vurulan zərbələr işğalçıları qorxuya salıb, o, vahimə içindədir. Ermənistan iflic vəziyyətinə düşərək iqtisadiyyatı çökür, ordusu isə dağılmaq həddindədir. Düşmən anlamalıdır ki, onun yeganə çıxış yolu işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməsidir. Əks halda, Silahlı Qüvvələrimiz xalqımız və dövlətimiz qarşısındakı müqəddəs vəzifəni - torpaqlarımızın işğaldan azad edilməsi missiyasını yerinə yetirəcəkdir", - deyə Müdafiə naziri bildirib.

Şəxsi heyət təntənəli marşla tribuna önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar ediblər.

Cəbhə bölgəsində yerləşən hərbi hissənin şəxsi heyəti Müdafiə Nazirliyi rəhbərliyini əmin edib ki, onlar göstərilən diqqət və qayğıdan, xidmət üçün yaradılan ən müasir şəraitdən ruhlanaraq Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hər bir əmrinə bundan sonra da hazır olacaqlar.

Müdafiə Nazirliyi
Mətbuat Xidməti

Təlimlərin uğurlu olsun, Azərbaycan əsgəri!

Əsgər Zamil Rəhimov xeyli müddətdir ki, ordu sıralarında vətəndaşlıq borcunu yerinə yetirir. Hərbi xidmətə başladığı ilk gündən dərs və məşğələlərdə fəal iştirak edərək hesablayıcı ixtisasının sirlərinə yiyələnib. Keçirilən sınaq təlimlərində dəqiq hesablamalar apararaq qarşısında dayanan tapşırıqları peşəkarlıqla yerinə yetirib. Qısa müddət ərzində biliyi və bacarığı ilə həm komandirlərin, həm də əsgər dostlarının hörmət və rəğbətini qazanıb. Həmişə təlimlərdən alnıaçıq, başıuca qayıdıb. Bu günə qədər belə olub, yəqin bu gündən sonra da belə olacaqdır.

- Cəbhə bölgəsində xidmət etmək şərəfdir, burada döyüş tapşırıqlarını yerinə yetirməkdən qürur duyuram, - deyə əsgər Zamil Rəhimov bir anlıq işindən ayrılıb bizimlə söhbət edir. - Ordu sıralarına xidmətə gəldiyimiz ilk günlərdə silahlar və hərbi həyat barədə məlumatım az idi. Zaman ötdükcə ordu həyatı ilə yaxından tanış oldum. İlk məşğələdən başlayaraq hərbi bilikləri həvəslə öyrəndim. Dərslərə ciddi yanaşdığıma görə qısa müddət ərzində hesablayıcı ixtisasını dərindən mənimsədim. Təlimdən-təlimə təcrübəm daha da artdı. İndi öz peşəmi mükəmməl bilirəm və döyüş tapşırığının öhdəsindən bacarıqla gəlirəm. Bu gün qar yağıb. Göz işlədikcə uzanıb gedən bu mənzərələrə baxmaqdan doymuruq. Vətənimizin yazı da, qışı da gözəldir. Qürur duyuram ki, belə gözəl yerləri qorumaq bizə tapşırılıb. Bütün çətinliklərə sinə gərərək torpaqlarımızın keşiyində ayıq-sayıq dayanırıq.

Əsgər Zamil Rəhimov hər gün yorulmaq bilmədən təlim-məşqlərdə fəal iştirak edir, bilik və təcrübəsini artırır. Yaxşı bilir ki, yüksək bilik və bacarıq həmişə əsgərə başucalığı gətirib. Budur, o yenə də hesablayıcı qurğunun "sükanı" arxasında öz xidməti vəzifəsini yerinə yetirir. Onun cəld hərəkətlərini, bacarıqla, çevikliklə hesablamalar aparmasını gördükcə ürəyim dağa dönür. Əsgərlərimizə rəğbətim, hörmətim daha da artır. Sanki bütün səsimlə, gücümlə qışqırıb bu qarlı dağlara səs salıb demək istəyirəm ki, xidmətin, işin, təlimlərin və gələcək döyüşlərin uğurlu olsun, Azərbaycan əsgəri!

Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Düşmənlə atışmada əsgərimiz şəhid olub

Fevralın 5-də axşam saatlarında erməni silahlı bölmələri ilə atışmada xidməti vəzifəsini yerinə yetirərkən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Ağayev Fərid Rüfət oğlu ağır yaralanıb.

Əsgərimizə vaxtında və müvafiq tibbi yardım göstərilməsinə baxmayaraq, təəssüflər olsun ki, onun həyatını xilas etmək mümkün olmayıb.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Silahlı Qüvvələrimizin düşmənə qarşı cavab tədbirləri daha ciddi, qətiyyətli və amansız olacaqdır

Fevralın 5-də axşam saatlarından başlayaraq gecə ərzində Tovuzun Əlibəyli kəndi Ermənistan ərazisindən müxtəlif çaplı silahlardan intensiv atəşə tutulub.

Düşmən Silahlı Qüvvələrimizin mövqeləri ilə yanaşı dinc əhalini, onlara məxsus evləri və digər tikililəri hədəfə alıb. Atılan yandırıcı güllələrdən kənd ərazisindəki evlərdən biri yanıb, vətəndaşların şəxsi əmlakına xeyli ziyan dəyib. Bir nəfər kənd sakini yaralanıb.

Ermənistan silahlı qüvvələrinin rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməyərək heç bir hərbi əhəmiyyət kəsb etməyən obyektləri, dinc sakinləri mülki əhalinin şəxsi əmlakını atəşə məruz qoymaqla Azərbaycan tərəfini adekvat addımlar atmaqla provokasiyaya çəkmək məqsədi güdür.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Silahlı Qüvələrinin hədəfi heç vaxt mülki əhali və qeyri-hərbi obyektlər olmayıb. Dinc əhaliyə qarşı törətdikləri bu əməllərə görə düşmən məsuliyyət daşımalı və ordumuzun ermənilərin hərbi hədəflərinin məhv edilməsi məqsədilə görəcəyi cavab tədbirləri daha ciddi, qətiyyətli və amansız olacaqdır.

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

5 fevral 2015-ci il.

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 70 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar, Berkaber və Noyemberyan rayonunun Şavarşavan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Fərəhli, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari, Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Hacılı və Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şuraabad, Yusifcanlı, Kəngərli, Sarıcalı, Şıxlar, Cəvahirli, Şirvanlı, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

6 fevral 2015-ci il.

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatan və iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 86 dəfə pozaraq mövqelərimizi intensiv atəşə tutub.

Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində, İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Fərəhli, Quşçu Ayrım, Qızılhacılı və Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində, Berd rayonunun Çinari, Mosesqex və Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağdam, Əlibəyli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Göyarx, Çaylı, Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Ağdam rayonunun Şuraabad, Yusifcanlı, Kəngərli, Sarıcalı, Şıxlar, Cəvahirli, Novruzlu, Qaraqaşlı, Mərzili, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən

VI dərs

(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

Suallar:

1. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir.

2. Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır.

Mövzu: Azərbaycan xalq eposlarında milli qəhrəmanlıq nümunələri ("Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları əsasında)

İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirmək tövsiyə olunur.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir

Erkən orta əsrlərdə (VI-XI əsrlər) Azərbaycanda baş verən ictimai-siyasi hadisələr öz bədii əksini şifahi və yazılı ədəbiyyatda tapmışdır. Həmin dövrdə şəhərlərdə və oturaq əhali arasında daha çox sehrli nağıllar və dini rəvayətlər yayıldığı halda, maldarlıqla məşğul olan əhali arasında aşıq yaradıcılığı inkişaf etmişdi. Köçərilər arasında ozanların böyük nüfuzu var idi. Onlar el-el, oymaq-oymaq gəzərək xalq qəhrəmanlarının adına dastanlar qoşur və onları təbliğ edirdilər. Ozanlar eyni zamanda xalqın məsləhətçisi, bilicisi hesab olunurdular. Ən məşhur ozanları xalq hörmətlə "dədə" adlandırırdı.

Qədim oğuz türklərinin məişətini, etik-estetik düşüncələrini əks etdirən qəhrəmanlıq eposu bu günümüzə şifahi və yazılı şəkildə gəlib çatmışdır. Azərbaycanın qəhrəmanlıq eposunun böyük abidələrindən olan, Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ilk ən böyük ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"dur. Bu gün elmə məlum olan "Kitabi-Dədə Qorqud" əlyazmalarının Drezden, Vatikan və Berlin kitabxanalarında saxlanılan nüsxələri məlumdur. Həmin əlyazmalarda oğuz bəylərinin bahadırlıq və cəngavərlik rəşadətlərini düzüb qoşan və milli yaddaşa verən Dədə Qorqudun peyğəmbərimiz Həzrəti Məhəmmədlə (s.a.v.) bir dövrdə yaşadığı göstərilir.

"Kitabi-Dədə Qorqud" dastanında türk etnik qrupuna daxil olan oğuzların qəbilə və tayfa münasibətləri dövrünün hadisələri, oğuz tayfalarının dövlətçilik və idarəçilik ənənələri, Vətən, torpaq uğrundakı vuruşları, sivil mədəniyyətə doğru tarixi inkişafı əks etdirilir.

Dastanda təsvir olunan hadisələr xanlar xanı Bayandır xanın başçılıq etdiyi, iyirmi dörd sancağı (el, vilayət) birləşdirən Oğuz dövlətində cərəyan edir. Vahid tayfa dövləti olan Oğuz birliyində yaranmış daxili çarpışmalardan, tayfalararası ziddiyyətlərdən yaxın ərazilərdəki düşmən tayfalar istifadə etməyə çalışırdılar. Mərkəzi hakimiyyətə tabe olan sancaqların vahid dövlətçilik ənənələri yox idi. Bununla belə, Oğuz dövlətçiliyinin özünəməxsus idarəçilik qaydalarını, dövlətçilik modelini öyrənmək bu günümüz üçün də çox böyük əhəmiyyətə malikdir.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanlarının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. Oğuz tayfaları dilindən "Dədəm Qorqud kitabı" adlanan Drezden nüsxəsi bir müqəddimə və 12 boydan, Vatikan nüsxəsi isə eyni müqəddimə və 6 boydan ibarətdir. Bu isə onu göstərir ki, hər iki nüsxə daha qədim bir nüsxədən köçürülmüşdür. "Kitabi-Dədə Qorqud"un bir sıra boyları 1815-ci ildə alman dilində, 1894-1904-cü illərdə rus dilində, 1916-cı ildə tam şəkildə Türkiyədə, 1939-cu ildə Bakıda, 1952-ci ildə İtaliyada, 1962-ci ildə isə Moskvada çap edilmişdir. Sonralar "Kitabi-Dədə Qorqud" ingilis, alman və fars dillərinə tərcümə edilmiş və İngiltərədə, ABŞ-da, İsveçrədə və İranda çapdan çıxmışdır.

Qafqazda olmuş alim və səyyahlar "Kitabi-Dədə Qorqud"dan dəfələrlə bəhs etmişlər. Adam Oleari adlı səyyah 1638-ci ildə Dərbənddə azərbaycanlılardan Dədə Qorqud hekayətlərini eşitdiyini, Qazan xanın arvadı Burla xatunun, eləcə də Dədə Qorqudun özünün burada qəbirləri olduğunu göstərmişdir. Evliya Çələbi isə "Səyahətnamə"sində Dərbənddə Dədə Qorqudun qəbri olduğunu və şirvanlıların bu qəbrə böyük ehtiram və etiqad bəslədiklərini qeyd etmişdir.

Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında xalq dilinin incəliklərindən, atalar sözlərindən, məsəllərindən məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan dilinin tarixini öyrənmək baxımından zəngin mənbədir. "Kitabi-Dədə Qorqud" motivləri əsasında yazıçı Anar kino-dastan yazmış, 1975-ci ildə "Azərbaycanfilm" kinostudiyasında eyni adlı ikiseriyalı bədii film çəkilmişdir.

"Kitabi-Dədə Qorqud" dastanı XI-XII əsrlərdə və daha əvvəllər Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Göyçə gölü, Gəncə, Dərəşam, Əlincə, Qaradağ, Qaraçuq dağı və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edilir. Bayat elindən çıxmış bu bilicinin oğuzun müşkül məsələlərini həll edərək gələcəkdən xəbər verdiyi göstərilir. Azərbaycanda Dədə Qorqudun bütün əşyalara ad verməsi barədə rəvayət mövcuddur. "Kitabi-Dədə Qorqud" boylarında da Dədə Qorqud şücaət göstərən igidlərə ad qoyur, çətin zamanlarda xalqın köməyinə gəlir, müdrik məsləhətləri ilə onlara yol göstərir.

"Kitabi-Dədə Qorqud" boyları müxtəlif hadisələrdən və ayrı-ayrı oğuz igidlərinin qəhrəmanlığından bəhs etsə də, onlar bir-biri ilə bağlı olub vahid dastan təsiri bağışlayır. Dastanlarda oğuzun yaşlı (Qazan xan, Dirsə xan, Qazılıq Qoca, Bəkil, Baybecan, Aruz, Qaragünə) və gənc (Beyrək, Uruz, Basat, Yeynək, Qarabudaq, Əmran, Səgrək, Buğac) nəslə mənsub qəhrəmanlarından söhbət açılır. Qəhrəmanlıq ruhu abidənin əsas qayəsini təşkil edir. Dastanlarda igidlər yalnız öz şücaəti ilə adsan qazanırlar. Qəhrəmanlıq göstərməyən cavanlara ad verilmir.

"Kitabi-Dədə Qorqud"un qəhrəmanlıq ruhu Vətən məhəbbəti ilə ayrılmaz vəhdətdədir. Oğuz bəyləri doğma yurdlarını qorumaq naminə hər cür fədakarlığa hazır igidlərdir. Onların arasında məqsəd birliyi, ümumi mənafe uğrunda düşmənə qarşı birgə mübarizə ruhu hakimdir. Dastanlarda eyni zamanda xəyanət, həsəd, qorxaqlıq, fərarilik və s. kimi mənfi sifətlər kəskin tənqid olunur.

Eposda oğuz bəyləri ilə mübarizə aparan düşmən qəbilələri də təsvir edilir. Dastanlarda oğuzların düşmənə hücumları yalnız təcavüzkarlardan intiqam almaq məqsədi daşıyır. Qazan xan vuruş meydanında "qaçanı qovmur", "aman diləyəni öldürmür".

"Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatlarla zəngindir. Burada etik davranış normaları, ailə-məişət məsələləri öz əksini tapmışdır: oğul ata sözünü iki eləmir, ağsaqqal qocaya, ağbirçək qarıya hörmətsizlik bağışlanılmaz günah sayılır, yoldaşını döyüş meydanında qoyub qaçanlar amansız cəzalandırılır və s.

"Kitabi-Dədə Qorqud" eposunun qəhrəmanlıq ruhu qadın obrazlarında və onların davranışlarında da aydın görünür. Dastanda təsvir edilən mərd, əyilməz qadınlardan Qazan xanın qadını Burla xatun igidlikdə ərindən geri qalmır, döyüş meydanında hünər göstərir. Başqa qadın obrazları da (Banuçiçək, Selcan xatun və b.) namuslu, tədbirli, təmkinli, ağıllı və dözümlüdürlər.

Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır

Azərbaycan xalqının "Kitabi-Dədə Qorqud"dan sonra yaranan ikinci böyük qəhrəmanlıq eposu "Koroğlu"dur. Dastanın qəhrəmanı Koroğlu tarixi şəxsiyyətdir. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, Səfəvilər dövləti və Osmanlı imperiyası arasında müharibələr Azərbaycan xalqının maddi rifahının ağırlaşmasına və xalq kütlələrinin narazılıqlarına səbəb olurdu. XVI əsrin sonunda Şeyx Cəlalın başçılığı ilə Anadoluda vüsət alan kəndli hərəkatı XVII əsrin əvvəllərində Azərbaycana da yayıldı.

Müxtəlif tayfalar içərisindən çıxmış Cəlali dəstə başçılarından ən məşhuru Azərbaycan türkü Koroğlu idi. Salmas yaxınlığındakı Xaraba qala Koroğlu tərəfindən tikilmişdir. Dastanda Naxçıvan ərazisi, Salmas, Xoy Koroğlunun ən çox fəaliyyət göstərdiyi yerlərdəndir. Dastanın bir çox variantlarında Koroğlunun iqamətgahı olan Çənlibel qalasının Naxçıvanda və Makuda yerləşdiyi göstərilir. Koroğlu öz qəhrəmanlıqları ilə xalq kütlələrinin hədsiz məhəbbətini qazanmışdı. Koroğlunun dastana daxil olunmuş və şəxsi yaradıcılığına aid edilən qoşmalarından başqa, dastanın heç bir variantında əksini tapmayan şeirləri də tapılmışdır. Tədqiqatçı alimlər tərəfindən Azərbaycan və Gürcüstan fondlarında saxlanılan naməlum müəlliflərin əlyazmalarında Koroğlunun ayrı-ayrı şeir və qoşmaları aşkar edilmişdir. Koroğlunun silahdaşlarından ayrı-ayrı dəstə başçıları - Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Tanrıtanımaz, Abaza paşa, habelə dastandakı mənfi personajların bir çoxu tarixdə yaşamış şəxslər hesab olunur. Bütün bunlar qəhrəman cəsarətini, xalq müdrikliyini, ədaləti özündə birləşdirən, nəğməkar, aşıq sənətinin bilicisi Koroğlunun real tarixi şəxsiyyət olduğunu deməyə əsas verir.

Azərbaycanda "Koroğlu" dastanının ilk nəşri 1913-cü ilə təsadüf edir. Bundan başqa dastanın 1927, 1929, 1941, 1949, 1956, 1975, 1983 və 1997-ci il nəşrləri də mövcuddur.

Azərbaycanın torpaqlarına olduğu kimi, mədəniyyətinə də iddialı olan ermənilər hətta "Koroğlu"nu da özününküləşdirmək kimi cəfəng xülyalarda olmuşlar. Tarixi bir faktdır ki, ötən əsrin 20-30-cu illərində Azərbaycanda fəaliyyət göstərən Tədqiq və Tətəbbə Cəmiyyəti xətti ilə aparılan ekspedisiyalar əsasında 1936-cı ildə eposun 20 qoldan ibarət yeni, daha mükəmməl nəşri çapa hazırlanmışdı. 1936-cı ilin dekabrında müstəntiq E.Qriqoryan tərəfindən həmin əlyazma Ermənistana, "mətndə ermənilərdən oğurlanmış qolları üzə çıxarmaq üçün" rəyə göndərilmişdi. Sonralar həmin qolların bir çoxu ermənilərin düzəlişləri ilə erməni mətbuatında "azərbaycanca və ermənicə çalıb-çağıran erməni aşıqlarından yazıya alınmış nümunələr" kimi nəşr edilmişdir. 1941-ci ildə isə İrəvanda "Koroğlu"nun ermənicə variantı üzə çıxıb. Bütün bunlar bizə bir daha erməni xislətinin iç üzünü açıb göstərir.

Xalqımızın qəhrəmanlıq ənənələrini əks etdirən xalq ədəbiyyatı nümunələri əsrlərdən keçərək bu günümüzə çatmış və millimədəni sərvətimizə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev bütün sahələrə olduğu kimi, tariximizə, mədəniyyətimizə də diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən, latın qrafikası ilə ilk növbədə kütləvi nəşr ediləcək Azərbaycan xalq ədəbiyyatı nümunələri arasında "Kitabi-Dədə Qorqud" eposunun 3 cilddə, "Koroğlu" dastanının 2 cilddə çapı nəzərdə tutulmuşdur.

Azərbaycan torpaqlarının 20 faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edildiyi bir zamanda Silahlı Qüvvələrimizdə döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsində, şəxsi heyətin, ümumiyyətlə, Azərbaycan gənclərinin vətənpərvərlik tərbiyəsində "Kitabi-Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq salnaməsinin dəyərli əsərləri kimi mühüm əhəmiyyətə malikdir.

Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi

Əlağa Şıxlinski - 150

Əlahiddə milli korpusun yaradıcısı

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən ölkədə ordu quruculuğu prosesinə başlanılması tarixi zərurətdən yaranmışdı. Bolşevik-daşnak hərbi birləşmələrinin Bakıda, Şamaxıda, Qubada və digər bölgələrdə törətdiyi qətliamların miqyası getdikcə genişlənirdi. Belə bir şəraitdə - yeni yaranan demokratik dövlətin varlığının təhlükədə olması Cümhuriyyət rəhbərlərini hərbi quruculuq sahəsində qətiyyətli addımlar atmağa sövq etdi. Müsəlman Şərqində ilk demokratik dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin milli ordusunun (1918-1920-ci illər) yaranmasında və təşəkkül tapmasında görkəmli hərb xadimi general Ə.Şıxlinskinin əvəzsiz xidmətləri olub. Ordu quruculuğunda zəngin təcrübəyə, geniş hərbi təfəkkürə malik olan general Ə.Şıxlinski 1918-ci il iyunun 26-da Müsəlman korpusunun bazasında yaradılan Əlahiddə Azərbaycan Korpusunun komandiri təyin edilir. O, ölkəsinin ağır müharibə şəraitində olmasını nəzərə alaraq bolşevik-daşnak qüvvələrinə qarşı qardaş köməyinə gələn Türkiyə ordusunun generalı Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun tərkibinə daxil olan Azərbaycan qoşun hissələri və könüllü dəstələrinin döyüş hazırlığını izləmək və təşkil etmək üçün dəfələrlə cəbhə xəttinə gedir. 1918-ci il sentyabrın 15-də Bakının azad olunması əməliyyatının keçirilməsi zamanı döyüşlərin idarə olunmasında bilavasitə iştirak edir. General Əlağa Şıxlinski Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ilə birlikdə üç dəfə birbaşa cəbhə xəttində olur. 1918-ci il iyunun 18-də Qaraməryəm cəbhəsində, iyulun 5-də Ağsu cəbhəsində, sentyabrın 10-da isə Bakı cəbhəsində olan ordu komandanları - Ə.Şıxlinski və Nuru Paşa qüvvələrin yenidən səfərbərliyə alınmasında, döyüş planlarının taktiki cəhətdən təkmilləşdirilməsində yüksək hərbi bacarıq nümayiş etdirirlər.

Bakı şəhərinin azad edilməsi üçün ilk cəhd 1918-ci il avqustun 5-də göstərilmişdi. Lakin planlaşdırılan həmin döyüşdə türk və Azərbaycan hərbi hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusu və onun tabeliyinə verilmiş Azərbaycan könüllü dəstələri qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirə bilmədilər.

"...Ordu xalqın istinadgahıdır - bura xalqın ləyaqətli oğulları gəlməlidir".

Əlağa Şıxlinski

Bakının azad edilməsi əməliyyatını uğurla başa çatdırmaq məqsədilə baş tutan 5 avqust döyüşünün nəticələri Əlahiddə Azərbaycan Korpusunun komandanı Əlağa Şıxlinski və Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa tərəfindən ciddi təhlil olundu. Ordu hissələrinin qısa vaxtda formalaşdırılması üçün zəruri tədbirlərin həyata keçirilməsi planlaşdırıldı. Hərbi qüvvələrin döyüş taktikasına yenidən baxılması, Bakıətrafı kəndlərin əhalisinin səfərbərliyə cəlb edilməsi, qoşun hissələrində və könüllü dəstələrdə döyüş ruhunun yüksəldilməsi kimi vəzifələr qarşıya qoyulmuşdu. Əməliyyatı qələbə ilə başa çatdırmaq üçün Bakı ətrafındakı hərbi qüvvələr daha da möhkəmləndirildi. Həmin vəzifələrin həyata keçirilməsi istiqamətində aparılan məqsədyönlü fəaliyyət 1918-ci il sentyabrın 15-də Bakı şəhərinin müstəqilliyimiz üçün təhlükəli olan qüvvələrdən təmizlənməsi ilə nəticələndi.

Sentyabrın 16-da qələbə münasibətilə türk-Azərbaycan hərbi hissələrinin Bakı ətrafında paradı keçirildi. Paradda Xəlil Paşa, Nuru Paşa, Əlağa Şıxlinski, polkovnik Həbib bəy Səlimov, Azərbaycan parlamentinin və hökumətinin üzvləri, bu qələbəni sevinc və ruh yüksəkliyi ilə qarşılayan Bakı və ətraf kəndlərin sakinləri iştirak etdilər. Onlar paraddan sonra qoşun bölmələrinin müşayiəti ilə Bakıya daxil oldular.

Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncədən Bakıya köçürüldükdən sonra Nazirlər Kabineti 1918-ci il noyabrın 1-də Hərbi Nazirliyin yaradılması haqqında qərar verdi. 1918-ci il dekabrın 13-də general-leytenant Əlağa Şıxlinski Hərbi Nazirliyin təşkili haqqında layihə ilə tam artilleriya generalı Səməd bəy Mehmandarova müraciət etdi. Hərbi Nazirliyin idarə aparatı 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinədək Gəncə şəhərində fəaliyyət göstərirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyətə başladıqdan sonra hərbi nazir vəzifəsinə general S.Mehmandarov, general-leytenant Ə.Şıxlinski isə nazir müavini təyin olundular.

General Əlağa Şıxlinski artilleriya və istehkamçı hissələrinə, habelə hərbi-təhsil müəssisələrinə və texniki-təminat sahələrinə nəzarət edirdi. 1919-cu ilin əvvəlində Ə.Şıxlinski hərbi qurumların ştat strukturunu hazırlayan komissiyanın sədri seçilir. Hərbi qulluqçuların geyim formasının layihəsini hazırlamaq da bu komissiyaya tapşırılır.

Bir müddət sonra Ə.Şıxlinski Hərbi Nazirliyin Müvəqqəti Hərbi Şurasının üzvü təyin edilir və Hərbi Şuranın əsasnaməsinin hazırlanması ona həvalə olunur.

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirinin müavini general Ə.Şıxlinski Türkiyənin Aydın vilayətində ermənilər tərəfindən törədilən qətliamın günahsız qurbanlarına - minlərlə türk vətəndaşına yardım göstərmək məqsədilə yaradılan ianə komitəsinə sədrlik edir. Bununla əlaqədar olaraq, 1920-ci il martın 16-da general Ə.Şıxlinski Azərbaycan xalqına müraciət edir.

Görkəmli generallar S.Mehmandarov və Ə.Şıxlinski müstəqil Azərbaycanın milli ordusunu formalaşdırmaq, təlimatlandırmaq, çar Rusiyası dövründə uzun müddət hərbi işdən uzaqlaşdırılmış azərbaycanlılara hərb sənətinin sirlərini aşılamaq sahəsində gərgin iş aparıblar və yüksək təşkilatçılıq təcrübələrindən istifadə edərək 23 ay müddətində Silahlı Qüvvələrin formalaşdırılması istiqamətində öz bacarıqlarını əsirgəməyiblər.

Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"

Unutmayaq!

1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!

Ordu və cəmiyyət

Ordum varsa, yurdum var...

Xalq şairi Zəlimxan Yaqubun misrasıdı. "Ordum varsa, yurdum (ata yurdum, kəndim-şəhərim, dövlətim - R.F.) var, ordum yoxsa, yurdum yox". Bu misralar yurd kəlməsini aydınlığıyla, bütün məna çalarlarıyla yaşam fəlsəfəsinə çevirir; poeziya həyatdan gələndə daha təsirli, daha əzəmətli olur və gecələrdən səhərlərə can atan istəyin özünə - dilin sözünə, ürəyin oduna-közünə dönür. Ordu dövlətin (deməli, cəmiyyətin), dövlətçiliyin cəfakeşidi, birmənalı şəkildə cəmiyyətin ümid, güvənc yeridi, qürur ünvanıdı. Dövlətin ərazi bütövlüyünün mövcudluğu ordunun gücündən, əsgər və zabitinin mənəvi-psixoloji hazırlığından asılıdı. Xalqın öz (!) ordusuna arxalanması təkcə hərbi gücün göstəricisi deyil, həm də zaman müstəvisində dövlətin yaşam düsturudu...

Xalqımız öz ordusunu həmişə ucalarda görmək istəyib. İstəmək azdı, həm də bunun cəfakeşi olub...

1992-ci ilin payızıydı. Tovuz rayonunda ezamiyyətdəydik. Səngərlərdə əsgərlərlə, zabitlərlə ürək dolusu söhbətləşirdik. Könül xoşluğuyla qayıdırdıq. Əlibəyli kəndində niyəsə, ayaq saxladıq. Düz-əməlli nəfəs dərməmiş bir ağbirçək "başımızın üstünü kəsdirdi". Üçümüzü də oğul əvəzi, nəvə əvəzi bağrına basdı. Evinə dəvət elədi. Təşəkkürümüz ağbirçəyin ərkqarışıq qədərsiz qınağına tuş gəldi; qaşları çatıldı, yanaqları səyridi:

- İnciməyin, a bala, - dedi. - Əyninizdəki paltar ki var, mənim gözümün nurudu. Məni bu yaşımda məğmun eləməyin. Siz olmasaydınız, bu yurdda bayquşlar ulaşardı. Siz varsınız deyə, gündüzlər əlimiz işə yapışır, gecələr rahat yatırıq. Canım ordumuza qurban olsun, a bala!

Hərbi mundirdəydik. Ağbirçək bizi Əlibəylinin müdafiəçiləri bilmişdi...

Onda bayaqdan bəri yarpaqları titrədən meh bir az çılğınlaşmışdı. Ağbirçəyin könlümüzü telləndirən kəlmələri yellərə qarışmışdı. Haracan gedəcəkdi, biləmmədim. Biləmməzdim...

O vaxtdan indiyəcən əsən yellər Əlibəylidə ana mehri gördüyüm ağbirçəyin onsuz da yadımdan çıxmayan son kəlmələrini xatırladır mənə: "Canım ordumuza qurban olsun!.."...

Ordu cəmiyyətin daha üstün, daha duyğusal, daha həssas münasibət göstərilməli tərkib hissələrindəndi. Xalqın orduya münasibəti cəmiyyətin mənəviyyat "barometridi" - düşünürəm. Həm də qənaətimdə israrlıyam.

Camaat onda ordumuzu yurdunun keşikçisi bilirdi, indi də belə bilir. El arasında deyildiyi kimi, "son tikəsini də ona verər", təki torpaqlarımız azad edilsin, təki ata yurdunda qaralan ocaqlar yenidən alovlansın, təki ürəklərin intizar yükü əriyib getsin...

... Bir dostumdan eşitmişəm:

Yağış yağırdı. Gecə gecədən keçmişdi. Əl-ayaq çəkilmişdi. Avtobus gəlmək bilmirdi. Çarəsizlikdən taksiyə mindim. İki-üç tin keçməmişdik ki, sürücü maşını saxladı.

- İnciməsən, o əsgəri də götürərdik, - dedi. Səsində minnət-xahiş vardı. "Götür", - dedim...

Əsgəri mənzilinə çatdırdıq. Sürücünün pul almaması mənə o qədər xoş təsir bağışladı ki!

- Əsgər ordu deməkdi. Əsgərinin, ordusunun qədrini bilməyənə, onu cani-dildən dəyərləndirməyənə yaşamaq haramdı, - dedi. - Əsgəri oğlu bilməyənin, qardaşı bilməyənin ömrü qarışıq yuxu kimi bir şeydi...

Sürücünün dünyaduyumu könlümü telləndirdi...

Qəlbidaşların xalqa zərrəcə aidiyyəti yoxdu. Gecənin gecə vaxtı insafsız yağışda o sürücünün xalqı, əsgərin ordunu təmsil elədiyini düşünməsi günah deyil. Bu, həyatımızın gerçəkliyidi. Həm də hər birimizə nəsə deyən gerçəkliyi...

Silahlı Qüvvələrimizdə gedən islahatları hamı görür. Bizə dost olan da, düşmən olan da. Hamı görür ki, bu ordu torpaqlarımızı qorumağa da qadirdi, işğal altında qalan torpaqları azad etməyə də. Xalqımızın öz ordusuna inamını da görürlər, sevgisini də. Hamı hiss eləyir, duyur, anlayır ki, "xalqı ordusunun, ordusu xalqın dayağı olan" (Abdulla Qurbani) dövlətin torpaqlarının işğaldan qurtuluşuna çox qalmayıb...

R.HÜSEYNOV,
"Azərbaycan Ordusu"

Layiqli vətəndaş, müsəlləh əsgər

Zabit Elçin Nuriyev söhbətimizdə bildirdi ki, şəxsi heyətimizin hər bir üzvü öhdəsinə düşən vəzifəyə, tapşırığa əməl etməklə, göstərilən ehtimadı doğrultmağa çalışır. "Bizə etibar olunan Vətən torpaqları mərdliklə qorunur. Vətənə şərəfli xidməti hər şeydən uca tutan igidlərimiz döyüş təcrübələrini artırmağa çalışırlar. Ötən illərlə müqayisədə əsgərlərimizin yüksək səviyyəli xidməti üçün hər cür şərait yaradılmışdır.

Öyrənirik ki, mayor Elçin Nuriyev təcrübəli, vətənpərvər zabitlərdəndir. Hərbi sahəni seçməkdə yanılmadığını bildirən zabit bu peşənin bütün peşələrdən daha gərəkli, qiymətli olduğunu qeyd edir. Ulu öndər Heydər Əliyevin hərbçi peşəsinə yüksək qiymət verdiyini xatırladan zabit dahi şəxsiyyətin ömür yolunun onlara ən layiqli ömək olduğunu diqqətə çatdırır.

Gündəlik hərbi xidmətdə döyüş hazırlığına xüsusi diqqət yetirən taborun şəxsi heyəti yeni tədris ilində də ənənələrə sadiq qalmaq üçün əzmlə çalışır. Belə bölmələrdən biri də minaatan batareyasıdır. Batareyanın şəxsi heyəti təlim və məşqlərdə hər zaman fəallıq göstərir.

Minaatanlar öz işlərinin öhdəsindən bacarıqla gəlirlər. Tabor komandiri batareyanın şəxsi heyətinin nizam-intizamlı olmasını, döyüş hazırlığında daha çox fərqləndiklərini xüsusi qeyd edir.

- Vətənpərvərlik, fədakarlıq olmasa, heç kim uğur qazana bilməz, - deyən zabit Ağadadaş Salmanov minaatanların uğurlarından qürur hissi ilə söhbət açır, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə onların qələbə əzmində olacaqlarına inamını ifadə edir.

Budur, növbəti ictimai-siyasi hazırlıq məşğələsi "Azərbaycan Respublikasında dövlət gənclər siyasəti, cəmiyyətdə gənclərin rolu və yeri" mövzusuna həsr olunub. Bu mövzunu ətraflı şərh edən zabit A.Salmanov ölkəmizdə həyata keçirilən gənclər siyasətinin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, gənclərlə bağlı genişmiqyaslı tədbirlərin həyata keçirildiyini diqqətə çatdırdı. Qeyd etdi ki, gənclər cəmiyyətimizdə olduğu kimi, ordu həyatında da əsas yeri tuturlar. Bu gün ölkəmizdə gənclər siyasəti Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İctimai-siyasi hazırlıq məşğələsində əsgərlər Kənan Əliyev, Elçin Hüseynli, Nicat Hacıyev də öz fikirlərini, mülahizələrini söylədilər. Bildirdilər ki, ölkəmizdə həyata keçirilən gənclər siyasəti hər bir gənc üçün yeni perspektivlər açır. Ordu sıralarında xidmət edən gənclər isə vətəndaşlıq borclarını yerinə yetirməklə gələcəyin layiqli vətəndaşı kimi formalaşırlar.

Mübariz MUSAOĞLU,
"Azərbaycan Ordusu"

"Şəhidlik zirvəsi"

Bu rekviyem-tamaşa (AzTV, 20 yanvar 2015) sözün, səsin, dinamikanın vəhdətindən süzülən mətləb kimi görünür. Həm də min illərin o üzündən süzülən kimi. Rekviyem-tamaşa mənə (bizə) min illərin o üzündə qalanların işığında bir həqiqəti yenidən yaşatma gücündəydi, yaşatdı da. Tarix dirəşsə də, üzə dursa da, qəddarlıq eləyən dünyanı yolundan saxlaya bilməsə də, bu mətləbə zaval yoxdu...



Əsər kimi poemanın, səs kimi muğam dəstgahının, hərəkət kimi baletin vəhdəti olan möhtəşəm kompozisiya (tamaşa) janr etibarilə rekviyem olsa da, ümumi ahəngi, intonasiyası tamaşaçısına nələri aşılayır? - 19 yanvar gecəsinin faciə (fəlakət) olduğunu (131 nəfər şəhid oldu, yüzlərlə vətəndaş yaralandı), qətiyyət, qeyrət gecəsi olduğunu (xalq müstəqilliyin cəfakeşiydi və öyrədilib göndərilmiş qəddarlıqdan çəkinmirdi), sədaqət gecəsi olduğunu (xalq zaman anlamında dünəninə, dünəninin şöhrət tarixinə sədaqətini təsdiqləyirdi), məhəbbət gecəsi olduğunu (İlhamsızlığa dözməyən Fərizənin timsalında), ... təsdiqləyirdi. Tarix bir gecəyə görə neçə on illər (bəlkə də əbədiyyən!) xəcalət çəkəcək.

Məzmun anlamında "Şəhidlik zirvəsi"nin əzəməti duyulandı - milli ruhun, milli heysiyyətin gözüylə baxmalısan ki, onun müqəddəs işığını görə biləsən.

Rekviyem-tamaşa ittiham gücündəydi. Söz Abdulla Qurbaninin sözüydü (poemanın, tamaşanın ssenari müəllifinin), səs xalqın səsiydi. Xalq o gecənin gətirdiyi faciəni ittiham edirdi. O gecə törədilən vəhşilikləri görən, görüb də dillənməyən dünyanı suçlayırdı. Gecə sözün, səsin əyninə dar gəlirdi. Səs müəllifin (Abdulla Qurbani) təhkiyyələrini ifa edən aktyorun, həmin təhkiyyələri "Şur", "Zəminxarə", "Segah",.. üstə səsləndirən xanəndənin "əlindən yapışıb" önə çəkirdi. Bu məqam rejissor tapıntısıdı; milli-azadlıq hərəkatı sözün qəlpini gerçəyindən ayırd eləmək gücündədi, həm də xalqa, milləta, dövlətçiliyə sevgi ümumidən sıyrılıb xüsusiləşir və xalq bu prosesi başı üstə bayrağımızla qoşa dalğalandırır.

Kompozisiyanın iştirakçıları obrazlardı - Ana, Ata, Oğul, Qardaş, Tələbə, Yeniyetmə... Bu məqam xalqın ifadəsidir, yəni o gecənin ağırlığını xalq çəkirdi. O gecəni xalq tarixləşdirirdi. İmperiya dirəşib azadlıq hərəkatını boğmaq istəsə də, xalq niyyətindən geri çəkilmədi; öyrədilmiş ölüm faciylə-fəlakətlə gəldi, qətiyyəti gördü, heysiyyəti gördü, mətanəti gördü, sədaqəti gördü - sındı, hikkəsindən yeri güllələdi, göyü güllələdi - bu qətiyyətin, sədaqətin, heysiyyətin, ... daşıyıcılarını güllələdi. Bir neçə aydan sonra çökdü. Onu Azərbaycan diz çökdürdü, xalqımız, xalqımızın dövlətçilik fəlsəfəsi diz çökdürdü...

...Ana fəryad eləyir. Gecənin qaranlığını da vahimələndirir bu səs, bu fəryad, bu nalə. Daşları belə əritməliykən imperiya siyasətinin qəlbinə rəhm gətirə bilməyən gecə xəcalətindən bir az da qaralır: "Gücsüzəm, qaranlıq siyasətin görünməyən tərəflərini pərdələdiyimdən xəcalət çəkirəm. Bu xalqın sevgisini görməyənlərə, görüb baş əyməyənlərə yazıq...", - deyir qaranlıq gecənin qaranlığı...

İşıq effektləriylə verilən mətləb bir atalar sözünü xatırladır: "Hər qaranlıq gecənin bir aydın səhəri var"; o gecənin içindən sıyrılıb çıxan səhər zaman anlamında bu günümüzdü - Azərbaycan dövlətçiliyi həyata qaytarıldı, onu xalqın iradəsi, məqsədi, istəyi qaytardı...

Ananın bir yarpaq bayatısı gecənin zülməti içində çaxan şimşəyə dönür. Tələbə oğlan onun qolundan tutur. Səsindəki qəhər seziləndi, bu qəhəri yumşaldan ünsiyyətin doğmalığı kimi sözlərin (şeirin, şeiriyyətin) məzmunundan dikələn səsin aşıladığı mətləbi hərəkət tamamlayır: eşidirsən, görürsən, duyursan:

Gəlmişəm ki, oğlun olum;
Köynəyindən keçir məni,
Ağlama, şəhid anası!..

Eşidilməyən, deyilməyən bu kəlmələri klassik musiqi tamamlayır; musiqinin aşıladığı duyum sözün təsirliliyinə xidmət edir və bu üzvi bağlılıq "Şəhidlik zirvəsi"ndən aydınlığıyla sezilir, görünür...

Azərbaycan Milli Dram Teatrının, Opera və Balet Teatrının, Bakı Bələdiyyə Teatrının, Azərbaycan Televiziya və Radio Qapalı Səhmdar Cəmiyyətinin musiqi kollektivlərinin, Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının xoreoqrafiya qrupunun üzvlərinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bədii qiraətçilərinin iştirak etdiyi rekviyem-tamaşa şəhidliyimizin, şəhidliyimizlə bir sırada qürurumuzun, qətiyyətimizin, dövlətçiliyimizə sədaqətin zirvəsi kimi təqdim edildi. Bu rekviyem-tamaşanın aşıladıqlarını hər gün, hər an yaşamaq mənəvi borcumuzdur. Çünki şəhidlik zirvəsi mənəviyyat zirvəsidir...

Rəşid FAXRALI,
"Azərbaycan Ordusu"

İdman

Bakı-2015: Azərbaycana gələcək 12 yığma müəyyənləşib

Bakıda keçiriləcək I Avropa Oyunlarının su polosu üzrə yarışlarına qatılacaq yığmaların bir çoxunun adları bəlli olub. Azərbaycan yığmasının ev sahibi kimi iştirak edəcəyi yarışa gənclərin Avropa çempionatında ilk 7 yerin sahibi gələcək. Bunlar Monteneqro, Serbiya, İtaliya, Macarıstan, Xorvatiya, Rusiya və İspaniya poloçularıdı. Digər 8 komandanın adına isə martın 11-15-də keçiriləcək Avropa Oyunlarının Təsnifat Mərhələsində aydınlıq gələcək. Qadınların yarışında isə Azərbaycanla yanaşı, Yunanıstan, İspaniya, Hollandiya, İtaliya və Macarıstan yığmaları lisenziyaya sahib olublar. Burada da son 6 millinin adı martın 11-15-də keçiriləcək Avropa Oyunlarının Təsnifat Mərhələsində müəyyənləşəcək.

Beynəlxalq reytinq cədvəlində Azərbaycanın 11 sərbəst güləşçisi yer alıb

Dünya Güləş Birliyi (DGB) sərbəst güləş üzrə yeni reytinq siyahısını açıqlayıb. AzərTAc xəbər verir ki, sərbəst güləşçilərimizdən 11-i DGB-nin reytinq siyahısında öz yerlərini tutub. Ən yüksək göstərici isə son dünya çempionatının qızıl medalçısı Hacı Əliyev (61 kq) və gümüş mükafatçısı Xetaq Qazyumova (97 kq) məxsusdur. Hər iki güləşçimiz reytinqdə ikincidir. İlk onluqda Əhmədnəbi Qvarzatilov (9-cu, 57 kq), Məhəmməd Müslümov (6-cı, 65 kq), Ruslan Dibirhacıyev (10-cu, 70 kq), Cəbrayıl Həsənov (10-cu, 74 kq), Həmzət Osmanov (9-cu, 86 kq) və Şərif Şərifov (7-ci, 97 kq) da var. Digər güləşçilərimiz Cəmaləddin Məhəmmədov 11-ci, Aslan Dzebişov 14-cü, Əli İsayev (hər üçü 125 kq) isə 15-ci pillədə qərarlaşıblar.

Azərbaycanın beş cüdoçusu beynəlxalq reytinq cədvəlində ilk onluqda qərarlaşıb

Beynəlxalq Cüdo Federasiyası fevral ayı üçün reytinq cədvəlini açıqlayıb. AzərTAc xəbər verir ki, siyahını Azərbaycan millisinin aparıcı idmançıları üçün uğurlu saymaq olar. Baş məşqçi Hacıağa Hacıəhmədovun yetirmələrindən 5-i ilk onluqda yerini qoruyub. Təmsilçilərimizdən ən yaxşı göstərici dünya çempionu Elxan Məmmədova (100kq) məxsusdur. O, öz çəkisində 4-cü yerdədir. İlk onluqda mövqelərini qoruyan Orxan Səfərov (60 kq) 5-ci, Elmar Qasımov (100kq) 6-cı, İlqar Müşkiyev ilə (60 kq) Rüstəm Orucov (73 kq) isə 10-cudur.

Velosipedçimiz "Fenioux Piste International" turnirində qızıl medala yiyələnib

Fransada Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) velosiped idmanının trek növü üzrə 1-ci kateqoriyalı "Fenioux Piste International" turnirinə yekun vurulub. AzərTAc xəbər verir ki, ilk yarış günündə keyrin növündə bütün rəqiblərini qabaqlamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxan yığma komandamızın lideri Olqa İsmayılova 200 metr məsafəyə sprint yürüşündə də qarşısıalınmaz olub. Bununla da velosipedçimiz "Fenioux Piste International" turnirində ikinci qızıl medala yiyələnib. Digər idmançımız Nicat Niftəliyev isə həm omniumda, həm də sprintdə 9-cu nəticə göstərib.

Yeniyetmə güləşçilərimiz İranda doqquz medal qazanıblar



Məşhəddə keçirilən yeniyetmələr arasında "Yadigar İmam Kuboku" beynəlxalq turnirində sərbəst və yunan-Roma güləşi üzrə yığma komandalarımız 1 qızıl, 3 gümüş və 5 bürünc medal qazanıb. AzərTAc xəbər verir ki, yunan-Roma güləşçilərimiz Məhəmmədəli Həsənli (58 kq) qızıl, Ceyhun Nəsirov (63 kq) isə bürünc medal qazanıb. Sərbəst güləş yığmamızın üzvləri isə turniri 3 gümüş və 4 bürünc medalla başa vurublar. Gümüş medalları yığmamıza Şahin Muxtarov (42 kq), Əliabbas Rzazadə (50 kq) və Əhliman Quliyev (76 kq) qazandırıblar. Digər güləşçilərimiz Fazil Həsənov (58 kq), Orxan Abbasov (63 kq), İsmayıl Abdullayev (69 kq) və Ravil Babazadə (76 kq) turnirin bürünc mükafatına sahib olublar.

Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU

Miçman Hüseynov Emin Oruc oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məmmədov Rasim Fərrux oğluna 2000-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məsul katib
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Əbülfət QASIMOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 226
Nüsxə 4600